## Mərhəmətli, Rəhmli Allahın adı ilə!

Həqiqətən şükür və tərif yalnız Allaha məxsusdur! Biz Ona həmd edir, Onu köməyə çağırır, Ondan bağışlanma və bizi doğru yola yönəltməyi diləyirik, nəfslərimizin şərindən və pis əməllərimizdən qorunmaq üçün yalnız Ona pənah aparırıq. Allah kimə hidayət verərsə o, doğru yolda olar, kimi azdırarsa onu doğru yola yönəldən tapılmaz. Mən şahidlik edirəm ki, Allahdan başqa ibadətə haqqı olan məbud yoxdur, Onun şəriki yoxdur və şahidlik edirəm ki, Muhəmməd Onun qulu və elçisidir.

«Ey iman gətirənlər! Allahdan Ona layiq olan tərzdə qorxun və ancaq müsəlman olduğunuz halda ölün!»[1]

«Ey insanlar! Sizi tək bir candan xəlq edən, onun özündən zövcəsini yaradan və onlardan da bir çox kişi və qadın *törədib yer üzünə* yayan Rəbbinizdən qorxun! Adı ilə bir-birinizdən *cürbəcür şeylər* istədiyiniz Allahdan və qohumluq əlaqələrini kəsməkdən çəkinin! Həqiqətən, Allah sizə nəzarət edir.»[2]

«Ey iman gətirənlər! Allahdan qorxun və doğru söz danışın ki, O, əməllərinizi islah etsin və günahlarınızı bağışlasın. Kim Allaha və Onun Elçisinə itaət etsə, böyük bir uğur qazanar.»[3]

## Ön söz

Siqaret çəkməyə mübtəla olan, ondan yaxa qurtarmaq istəyən və İslamda onun hökmünün haram, halal və ya məkruh olduğunu bilmək istəyən qardaşlarıma, hələ siqaret çəkməyə mübtəla olmayan, bu iyrənc adətə öyrəşməyən,

[1] Ali İmran, 102.
[2] ən-Nisa, 1.
[3] əl-Əhzab, 70-71.

insanlardan və cinlərdən olan şeytanların gələcəkdə onları azdıraraq siqaret çəkənlərdən edə biləcəyindən qorxduğum qardaşlarıma, siqaretin zəhərinin və zərərlərinin olmasını başqalarından daha yaxşı bilən, nəfsi və cismi sağlamlıqdan zövq almaq istəyən idmançı və intellektual gənclərə siqaret haqqında mühüm məlumatları toplamağa çalışdığım bu risaləni təqdim edirəm. İzzət və Cəlalət sahibi olan Allahdan istəyirəm ki, bununla insanlara fayda versin və bunu xalis Allah üçün yazılmış kitablardan etsin.

## Bu risalənin nəşrinin səbəbi

Uzun bir zamandan bəri İslamda siqaretin hökmünü bəyan edən kiçik bir risalə yazmağa ümid bəsləyirdim.

Bu yaxınlarda ümumdünya tibb müşavirəsi keçirildi və orada bütün həkimlər həmrəy oldular ki, siqaret sağlamlığa zərərlidir və o, boğaz və ağ ciyər xərçənginin yaranmasına səbəb olur. Gənclərin müəyyən təbəqələri arasında siqaretin yayılmasını görməyim məni çox qorxutdu. Çünki uşaqların sağlamlığını, əxlaqını və gələcəyini puç edən bu iyrənc adətin qurbanları olması bizim üçün çox ağırdır.

Mən həkimlərlə və alimlərlə məsləhətləşdim və onlar da məni bu işə həvəsləndirdilər. Mən nəsihət verib onun zərərini və haramlığını bəyan etdiyimdə, bir çox siqaret çəkənlərin bunları qəbul edib siqareti tərk etmələri də həvəsimin artmasına təsir etdi. Elə buna görə də bu nəsihətləri bütün insanlar üçün ümumiləşdirmək lazım idi. İslam dini onların sağlamlığının, dünya və axirətdə xoşbəxtliyinin qayğısına qalmaq üçün gəlmişdir.

# Dərhal siqareti söndür

Tütündə olan nikotin maddəsinin qan damarlarına büzüşdürücü təsiri vardır və o, damarların daralmasına səbəb olur. Tütünü yandırdıqda ilk çıxan karbon oksid qazı zəhərli qazdır. O, oksigen daşıyıcı olan qırmızı qan kürəciklərinin fəaliyyətini azaldır, bu da toxumaların oksigen azlığına səbəb olur. Ona görə də siqaret :

- Ürək əzələlərinin toxumalarını məhv edir.
- Tac damarda qüsurun (xəstəliyin) əmələ gəlməsinə səbəb olur.
- Stenokordiyaya (döş anginasına) səbəb olur.

Möhtərəm qardaşım! Əgər siqaret çəkənlərdənsənsə qəlbini qorumaq üçün dərhal siqaretdən əl çək!

# Siqaretin sağlamlığa zərəri

Ey müsəlman qardaşım! – Allah səni də, bizi də doğru yola yönəltsin – bil ki, İslam dini sənin sağlamlığına və xoşbəxtliyinə hərisdir. Belə ki, o sənə meyvələr, sərinləşdirici içkilər kimi və s. bütün faydalı, pak şeyləri halal edir, narkotik vasitələrdən olan şərab, həşiş və s. kimi bütün zərərli, iyrənc şeyləri haram edir.

Bəs siqaret zərərli, iyrənc şeylərdəndirmi?

1- Hələbdə mədəniyyət mərkəzində tibbi müşavirə keçirildi və peşəkar həkimlər ittifaqında mühazirə verildi. Orada bütün həkimlər həmrəy oldular ki, siqaret sağlamlığa zərərlidir. O, boğaz və ağ ciyər xərçənginin, ürək tutmasının (infarktın), vərəmin, mədə xorasının və digər xəstəliklərin başlıca səbəbidir. Çünki o, özündə müxtəlif zəhərli maddələri cəm etmişdir. Onların ən mühümü nikotin, qətran və başqa ziyanlı zəhərlərdir.

2- Tibb fakultəsinin müəllimi doktor Kənan əl-Cabi mü-

hazirədən sonra belə dedi: «Mən 25 ildir ki, xərçəng xəstəliyinin müalicəsi ilə məşğul oluram və mənim qarşıma çıxan boğaz xərçənginə məruz qalanların hamısı siqaret çəkənlərdir. Şübhəsiz ki, az siqaret çəkmək də zərərlidir, lakin (siqareti) azaldarsa xərçəngin nisbəti də azalar, çoxaldarsa artar».

3- Mühazirədə ürək xərçəngi mütəxəssisi olan başqa bir doktor da (çıxış edib) dedi: «Gündə 10 siqaret çəkmək sağlamlıq üçün zərərlidir və xərçəng xəstəliyinə məruz qalanların doxsan faizi siqaret çəkənlərdir».

4- Həqiqətən siqaret tələbələrə və idmançılara da zərərlidir. Çox təəssüf ki, indiki tələbələrin əksəriyyəti siqaret çəkənlərdir.

5- Şübhəsiz ki, sobanın bacası hər il təmizlənməlidir. Bəs onda bu miskin siqaret çəkənin qəlbi necə təmizlənməlidir?!

6- Suriya televiziyası Suriyanı ziyarət edən ümumdünya cərrahlarının vasitəsi ilə siqaretin zərərlərini nümayiş etdirdi.

7- Dünya ölkələri onunla (siqaretlə) mübarizəyə başladılar və onun qutusunun üzərində «siqaretdən çəkinin, o zərərlidir» sözlərini yazdılar.

8- Mənə inandığım bir kişi siqaret çəkənin cəsədini yaran həkimi müşahidə etdiyini söylədi. O (həkim) meyitin ağ ciyərini yardıqda ətrafında olan insanlardan tələb etdi ki, onlar bu siqaret çəkənin qətrandan olan qara təbəqənin üstünlük təşkil etdiyi ağ ciyərini müşahidə etsinlər. O əli ilə ağ ciyəri çıxardıb sıxdı və ondan qətran süzülməyə başladı. Hətta o ağ ciyərin daxilinə vardıqda insanın nəfəs alması üçün olan deşiyin tutulduğunu gördü. Elə bu da öz canını siqaretlə öldürən bu axmaq siqaret düşkününün ölümünə səbəb olmuşdur.

Bu həkim orada iştirak edənlərdən tələb etdi ki, bir siqa-

ret yandırıb saralana qədər ağ tənzifə üfürsünlər. Həkim siqaret çəkəndən təkrar olaraq o qədər üfürməyi tələb etdi ki, hətta tənzifin deşikləri tutuldu. Sonra o iştirak edənlərə üzünü tutaraq dedi: "Əgər bu siqaret öz tüstüsü ilə tənzifin deşiklərini tuta bilirsə, onda siqaret çəkənin sinəsinə və ciyərinə daxil olan yüzlərlə siqaretin tüstüsü necə olar?!

9- Müasir elm isbat etmişdir ki, siqaretdə nikotin adlanan zəhər vardır. Bu zəhəri aşağıdakı təcrübə ilə yoxlamışlar. Bir dovşan götürüb, ona nikotin maddəsini iynə ilə yeritmişlər. Dovşan keyləşmiş, sonra ölmüşdür.

10- Bir alman həkimi demişdir ki, əgər siqaret çəkən insan bir neçə siqaretin tüstüsünü dalbadal çəkib sinəsinə doldurarsa, o, içki sərxoşluğuna yaxın bir hala düşər. Mənə siqaret çəkən bir şəxs söylədi ki, o, bu əməliyyatı öz üzərində təcrübədən keçirmiş və bundan sərxoş olmuşdur.

11- Əgər sən siqaretin bəzi zərərlərini və sinənə hopmuş çirki görmək istəyirsənsə siqaret qoyulan çubuğa və tütün və ya tənbəki doldurulan qəlyanın içinə bax. Ora tökülmüş hisi və qətranı görəcəksən.

12- Mənə bir aqronom danışırdı ki, tütün koluna nə bir heyvan, nə də bir quş yaxınlaşır. Çünki onlar öz (heyvani) hissləri ilə onun zərərini bilirlər.

13- Şübhəsiz ki, tənbəkinin və qatın[4] sağlamlığa, bədənə, mala və ətrafdakılara olan zərəri siqaretdən heç də geri qalmır.

## Siqaretin ictimai zərərləri

1- Siqaret havanı korlayır. Xüsusən də otaqda və nəqliyyatda olduqda öz xoşagəlməz iyisi ilə orada olanlara,

---

[4] Qat: Narkotik bitkidir. Yəməndə onu çeynəyirlər.

uşaqlara və qadınlara əziyyət verir. Artıq həkimlər siqaretin tərkibində zəhərli nikotin maddəsi qətran və digər maddələrin mövcud olduğuna görə onun tüstüsü ilə nəfəs almağın zərərli olduğunu təsdiq etmişlər.

Həkim Kilford demişdir: «Əgər həssas bir insan siqaretin tüstüsü ilə nəfəs alarsa onun qəlbi zəifləyər».

Hələb həkimlərinin ən böyüyü doktor Nazim Nəsimi demişdir: «Dörd saat siqaret çəkilən bağlı otaqda qalmaq iki saat siqaret çəkməyə bərabərdir».

2- Zökəm və vərəm xəstələri əgər siqaret çəkəndirlərsə bu xəstəliyi başqalarına keçirirlər, xüsusən də, öskürdükdə.

3- Su və hava həyat üçün ən mühüm ünsürlərdəndir. Suyu çirkləndirmək yolverilməz olduğu kimi havanı da siqaretin tüstüsü ilə çirkləndirmək olmaz.

4- Peyğəmbərdən (s.ə.s) varid olan səhih bir hədisdə deyilir: «Yaxşı yoldaşla pis yoldaşın misalı ətir satanla körük vuranın misalına bənzəyir. Ətir satan ya sənə ətir verəcək, ya sən ondan ətir alacaqsan, ya da səndən gözəl iy gələcəkdir. Körük vuran isə ya paltarını yandıracaq, ya da səndən pis iy gələcəkdir». (Buxari və Muslim)

Hədisin mənası: Bu hədis bizə göstərir ki, yoldaşlıq iki növdür:

a) Sənə fayda verən yaxşı yoldaş ətir satana bənzəyir. Belə ki, o , sənə ya ətir verəcək, ya sən ondan ətir alacaqsan, ya da səndən gözəl iy gələcək.

b) Pis yoldaş isə körük vurana bənzəyir. Siqaret çəkən isə elə körük vuran kimidir. O ya siqareti ilə sənin paltarını yandıracaq, ya da səndən pis siqaret iyi gələcəkdir.

5- Əgər hansısa siqaret çəkməyən bir insan sənin qarşında durub sənin üzünə üfürsə onunla savaşarsan və ya ona «dəlidir» deyərsən. Bəs onda zəhərli və iyrənc siqaretin

tüstüsünü sənin üzünə üfürənlə necə davranarsan?!

6- Siqaret ətrafda olanlara və mələklərə əziyyət verir: Bir hədisi şərifdə Peyğəmbər (s.ə.s) buyurur: «Sarımsaq və soğan yeyən bizdən və məscidimizdən uzaq olsun, öz evində otursun». (Buxari və Muslim) Siqaret isə sarımsaq və soğandan da çox əziyyət verir.

7- Təəccüblüsü budur ki, əksər siqaret çəkənlər ictimai hissləri itirirlər. Onlar ətrafdakılara zərər verdikləri barədə heç düşünmürlər. Hətta ətrafdakılar xəstə olsalar da belə. Onlar həmçinin «siqaret çəkmək qadağandır» yazılan lövhələrə də məhəl qoymurlar. Bəzən görürsən ki, minikdə, bağlı otaqda, yığıncaqda və xəstəxanada kimsə siqaret çəkir. Baxmayaraq ki, İslam dini müsəlmandan hər namazdan öncə misvaklanmağı və gözəl iyi gəlsin deyə ətirlənməyi tələb edir. Lakin hərdən görürsən ki, məscidə bir siqaret çəkən daxil olur, onun pis iyi namaz qılanlara və mələklərə əziyyət verir.

## Siqaretin maddi zərərləri

Siqaret heç bir fayda vermədən malı israf edir. Əksər kasıblar siqaretə görə öz ailələrini yeməkdən, içməkdən və geyimdən məhrum edirlər. Siqaret çəkən hər gün siqaretə sərf etdiyi pulu toplasa, onunla ev alar, evlənər, həcc edər...

Əgər bizdən birimiz hər gün öz malından bir lirə ayırıb adəti üzrə onu dənizə atarsa və bundan həzz alarsa, insanlar ona müalicəyə ehtiyacı olan dəli deyərlər.

Əgər siqaretin törətdiyi ziyanları bilmək istəyirsənsə aşağıdakılara nəzər sal:

1- Fərz edək ki, əhalisinin sayı səksən milyon olan Suriyanın bir milyonu siqaret çəkir. Hər siqaret çəkən də gün ərzində siqaretə ən azı bir lirə sərf edirsə, bu da bir gün

üçün bir milyon, bir il üçün isə üç yüz altmış milyon lirə ziyan deməkdir. Üstəlik bura siqaret çəkmək üçün istifadə olunan bahalı alışqanların və kibritlərin qiymətləri də əlavə olunur. Belə olan təqdirdə sayı təqribən bir milyard olan və əksəriyyəti də öz bədənlərinə zərər və ətrafdakılara əziyyət verərək siqaret çəkən islam ümmətinin siqaretə nə qədər pul sərf etdiyi barəsində nə demək olar?!

2- Bura siqaretin törətdiyi öskürək, xərçəng və s. bu kimi xəstəliklərin müalicəsinə sərf olunan xərcləri də əlavə et!

3- Siqaret çox vaxt paltarların, dükanların, yanacaq doldurma məntəqələrinin, mətbəələrin və digər bu kimi şeylərin yanmasının başlıca səbəbkarıdır.

4- Yanğın söndürənlər sübut etmişlər ki, evlərin, zavodların, xırmanların və maşınların yanmasının yetmiş faizi bu lənətə gəlmiş siqaretlə bağlıdır. Elə yanğınların əksəriyyəti də əhəmiyyətsiz hesab etdiyimiz qığılcımlardan törəyir.

5- Əgər biz siqaretin əksəriyyətinin bizə düşmən olan əcnəbi ölkələrdən gətirildiyini bilsəydik, məruz qaldığımız ziyanın nə qədər ağır olduğunu dərk edərdik. Halbuki biz elə bir əsrdə yaşayırıq ki, dinimizi və müqəddəs yerlərimizi qorumaq üçün, həmçinin Allah yolunda vuruşanlara və müsəlmanlara kömək etmək üçün bizim pula daha çox ehtiyacımız var.

6- Səudiyyə Ərəbistanının səhiyyə naziri demişdir ki: «Hökumət gömrük vasitəsi ilə siqaretdən əldə etdiyi gəlirdən iki qat artıq siqaretin törətdiyi xəstəliklərin müalicəsinə xərcləyir. Həmçinin bir çox dövlətlər də gömrük vasitəsi ilə siqaretdən hasil etdikləri gəlirlərin hamısını, hətta ondan da artığını siqaretin törətdiyi xəstəliklərin müalicəsinə sərf edirlər».

# Siqaretin əxlaqi zərərləri

1- Bəzən siqaret çəkən cavanlar siqaret almaq üçün atasından və ya qonşusundan oğurluq edirlər. Məhkəmələr müşahidə etmişlər ki, canilərin doğsan beş faizi siqaret çəkənlərdir.

2- Siqaret əcnəbilərə olan kor-koranə təqliddir. Odur ki, siqaretin barlarda, diskotekalarda, kinoteatrlarda, kafelərdə və kazinolarda çəkildiyini görərsən və bunlar da şəhərin korlanmasına gətirib çıxardan amillərdəndir. Bu dünya onlar üçün siqaretdən və qədəhlərdən başqa bir şey deyildir.

3- Doktor Conson deyir ki, siqaret əsəblərə çox böyük təsir edir. Elə ona görə də çox vaxt siqaret çəkəni əsəbi halda görərsən. O kiməsə qəzəblənir, onunla mübahisə edir, onu söyür, vurur, insanlarla və öz ailəsi ilə kobud rəftar edir. Xüsusən də o, siqaret tapmadıqda (qəzəbindən) öz ailəsini vurur, söyür və bəzən də boşayır.

4- Hərdən siqaret çəkən özünü başqasının qarşısında alçaldaraq ondan siqaret istəməyə məcbur olur. Lakin o ac olsaydı özünü alçaldaraq bir parça çörək belə istəməzdi.

5- Siqaret bizi müsəlmanları şəriətə və qanuna müxalif olaraq Ramazan ayında aşkarcasına siqaret çəkməyə vadar edir. Çünki onlar dini və ictimai hissləri itirmişdir.

6- Bəzi tələbələrin və uşaqların siqaret çəkməsi onların tərbiyələrinin və əxlaqlarının pis olmasına dəlalət edir. Siqaret heç də kişilik əlaməti deyildir.

7- Qadınların siqaret çəkməsi isə onların gözəlliyini korlayır, ağızlarından pis iy gəlməsinə səbəb olur, özlərinə və övladlarına zərər verir. Bu kor-koranə (kişiləri) yamsılamaqdır. Buxarinin "Səhih" əsərində rəvayət olunan hədisdə deyilir ki: «Peyğəmbər (s.ə.s) özlərini kişilərə

oxşadan qadınlara və özlərini qadınlara oxşadan kişilərə lənət etmişdir».

## Siqaret haramdırmı?
## (Quran və mötəbər hədislərdən dəlillər)

Peyğəmbərin (s.ə.s) zamanında siqaret mövcud olmamışdır. Lakin İslam dini bədənə zərər verən, ətrafdakılara əziyyət verən və malı tələf edən hər bir şeyin haramlığını göstərən ümumi dəlillər gətirmişlər.

1- Uca Allah buyurur: «(O Peyğəmbər) onlara təmiz (pak) nemətləri halal, murdar (napak) şeyləri haram edər». (əl-Əraf, 157) Siqaret də pis iyli, zərər verən murdar şeylərdəndir.

2- Uca Allah buyurur: «Öz əlinizlə özünüzü təhlükəyə atmayın». (əl-Bəqərə, 195) Siqaret vərəm və xərçəng kimi təhlükəli xəstəliklərə düçar edir.

3- Uca Allah buyurur: «Özünüz özünüzü öldürməyin». (ən-Nisa, 29) Siqaret də tədricən özünü öldürməkdir.

4- Uca Allah şərabın və qumarın zərəri haqqında buyurur: «Onların günahları mənfəətlərindən daha böyükdür». (əl-Bəqərə 219) Siqaretin zərəri mənfəətindən nəinki böyükdür, hətta onun hamısı zərərdir.

5- Uca Allah buyurur: «(Mal-dövlətini əbəs yerə) sağa-sola da səpələmə. Həqiqətən, (malın əbəs yerə) sağa-sola səpələyənlər şeytanın qardaşlarıdır». (əl-İsra 26-27) Siqaret mal və onun sahibi üçün israfdır.

6- Uca Allah Cəhənnəm əhlinin yeməyi haqqında buyurur: «Onların yeməyi (zəhərdən və acı tikanlı otdan hazırlanmış) zəridən başqa bir şey olmayacaqdır. (O yemək onlara) nə qüvvət verər, nə də aclıqdan qurtarar». (əl-Ğaşiyə 6-7) Siqaret Cəhənnəm əhlinin yeməyi kimi nə qüvvət

verər, nə də aclıqdan qurtarar.

7- Peyğəmbər (s.ə.s) demişdir: «Zərər vermək olmaz, zərərə qarşı zərər də vermək olmaz». (İmam Əhmədin rəvayət etdiyi səhih hədisdir». Siqaret onu çəkənə zərər verir, əziyyət verir və malı tələf edir.

8- Peyğəmbər (s.ə.s) demişdir: «Allah sizə üç şeyi haram etmişdir: «Dedi-qodunu, malı tələf etməyi və çoxlu sual verməyi». (Buxari və Muslim) Siqaret onu çəkənin malını tələf edir.

9- Peyğəmbər (s.ə.s) demişdir: «Ümmətimin hamısı bağışlanacaq, yalnız aşkarcasına günah edənlərdən başqa». (Buxari və Muslim) Yəni Allah istəsə bütün müsəlmanların günahlarını bağışlayacaqdır, lakin siqaret çəkənlər kimi aşkarcasına günah edənləri bağışlamayacaq. Çünki onlar Allahdan qorxmadan onu açıq-aşkar çəkirlər və başqalarını da bu murdar əmələ həvəsləndirirlər.

10- Peyğəmbər (s.ə.s) demişdir: «Kim Allaha və qiyamət gününə inanırsa qonşusuna əziyyət verməsin». (Buxari) Siqaret öz iyisi ilə həyat yoldaşına, övladlara, qonşulara xüsusən də mələklərə və namaz qılanlara əziyyət verir.

11- Peyğəmbər (s.ə.s) demişdir: «Qul (qiyamət günü) dörd şey barəsində soruşulmayınca ayaqlarını heç yerə tərpətməyəcəkdir: «Ömrü barəsində – onu nəyə həsr etdi, əməli barəsində – nə əməl etdi, malı barəsində – haradan qazandı və haraya xərclədi, bədəni barəsində – onu nəyə istifadə etdi». (Tirmizi rəvayət etmiş, Albani onu səhih hesab etmişdir). Siqaret çəkən malını özünə zərər verən və başqasına əziyyət verən haram siqaretə xərcləyir.

12- Peyğəmbər (s.ə.s) demişdir: «Çoxu sərxoş edən hər bir şeyin azı da haramdır». (İmam Əhmd rəvayət etdiyi səhih hədisdir). Siqaret çəkməyən kəs çoxlu siqaret çəkərsə sərxoş olar. Yaxud elə siqaret çəkənin özü də

dalbadal bir neçə qullab çəkərsə azacıq da olsa sərxoş olar. Bunları Almaniyalı bir həkim və həmçinin siqaret çəkənlərdən bəziləri təsdiqləmişdir.

13- Yuxarıda qeyd olunan siqaretin haram olması ilə bağlı bir çox dəlillərə baxmayaraq, bəzi insanlar siqaretin haram olması ilə razılaşmırlar. Xüsusən də özlərini müdafiə edən siqaret çəkənlər. Odur ki, onlara deyirik: Əgər siqaret haram deyildirsə, onda nə üçün onu məscidlərdə və möhtərəm yerlərdə çəkmirlər? Əksinə, onu ayaqyolunda və qeyri ictimai yerlərdə çəkirlər.

14- Bəziləri də onun məkruh olduğunu deyir. Onlara da belə deyirik: Əgər o məkruhdursa, onda nə üçün onu çəkirsiniz, axı məkruh harama halaldan daha yaxındır. Odur ki, Peyğəmbərin (s.ə.s) bu hədisinə diqqət edin: «Şübhəsiz ki, halal da məlumdur, haram da məlumdur! Bunların arasında şübhəli şeylər vardır ki, bir çox insanlar onlardan xəbərsizdirlər. Kim şübhəli şeylərdən çəkinərsə dinini və namusunu qorumuş olar, kim də şübhəli şeylərə dalarsa harama girmiş olar. Necə ki, çoban (sürünü) qoruğun ətrafında otarır və az qalır ki, (heyvanlar qoruğa girib) orada otlasınlar...» (Buxari və Muslim)

15- Artıq İslam insanları beş şeyi qorumağa çağırmışdır. Bu da nəfs, ağıl, mal, din və namusdur. Qeyd etmək lazımdır ki, həkimlər və alimlər siqaretin bu şeylərdən dördündə (namusdan başqa) xələl gətirməyində həmrəydirlər. O ki qaldı fəqihlərə, onlar siqaretin haram olmasına dair varid olan ayə və hədislərə etimad edir və başqa rəylər axtarmağa ehtiyac duymurlar.

# Fiqh alimlərinin siqaret barəsində verdikləri hökmlər.

1- Hənəfi məzhəbinə görə: İbn Abidinin «Tənqihul-Hamidiyyə» əsərində deyilir: Əgər siqaretin zərərli, israf və faydasız olduğu sübuta yetirilərsə, onun haram olduğu barədə fətva vermək caiz olar. (Artıq onun sağlamlığa, var-dövlətə, əxlaqa və ictimaiyyətə ziyan vurduğu sübuta yetirilmişdir) «Durrul-Muxtar» əsərində, 5-ci cild – «İçkilər" fəslində belə deyilir: «Tütün çəkən iddia edir ki, o, insanı sərxoş etmir. Onun dediyi kimi qəbul olunsa da, şübhəsiz ki, o, keyləşdiricidir və bu da haramdır. İmam Əhmədin rəvayət etdiyi hədisdə Ummu Sələmə (r.a) belə demişdir: «Peyğəmbər (s.ə.s) sərxoş edici və keyləşdirici[5] hər bir şeyi qadağan etmişdir».

(Həkimlər, təcrübəli adamlar və siqaret çəkənlər etiraf edirlər ki, o, keyləşdiricidir).

2- Şafii məzhəbinə görə: «Bəqiyyətul-mustərşidin» əsərində deyilir: «Tənbəkini onu çəkənə və ya başqasına çəkdirənə satmaq haramdır».

Məlumdur ki, tənbəkini çəkmək ən pis vərdişlərdəndir. Belə ki, bununla insanın malı, canı zay olur və heç kəs də bunu gözəl əxlaqdan hesab etmir. Alim və həkim olan şeyx Qalyubi siqaretin haram olduğunu demişdir. Əl-Bacurri ibn Qasimin əsərinə əlavə etdiyi haşiyədə demişdir: Siqaretin zərər olduğu yəqinləşdirilərsə haram olduğu qəbul edilər. (Artıq məlumdur ki, həkimlər siqaretin zərərli olduğunda həmrəydirlər)

3- Hənbəli məzhəbinə görə: Abdullah ibn Ali şeyx

---

[5] Şeyx əl-Albani hədisdəki "keyləşdirici" sözünün zəif olduğunu demişdir.

demişdir: «Peyğəmbər (s.ə.s) və elm əhlinin dediklərini xatırladıqdan sonra sənə aydın olur ki, indiki zamanda çox istifadə edilən tütün haramdır. Həmçinin Hənbəli məzhəbindən olan Misir alimi Əhməd əs-Sənhuri də siqareti haram hesab etmişdir.

4- Maliki məzhəbinə görə: Xalid bin Əhməd demişdir: «Tənbəki çəkənin, onun və digər sərxoş edici maddələrin alverini edən kimsənin imam olması caiz deyildir». Həmçinin Maliki məzhəbindən olan İbrahim əl-Ləqqani və digərləri siqaretin haram olduğunu demişlər.

5- Siqaretin halal olduğunu deyən fəqihlərə gəlincə, onların zamanında bunun zərərli olduğu tibb sahəsində bəyan olunmamışdı və elə buna görə də onu halal hesab etmişlər. Sözsüz ki, onlar bizim zamanımızda yaşasaydılar onun zərərindən xəbərdar olar və onu haram hesab edərdilər.

## Alimlərin siqareti haram hesab etməsi

Alimlərin böyük əksəriyyəti siqareti haram hesab etmişlər. Bunlardan bəzilərinin rəyi aşağıda qeyd olunmuşdur.

1- Bədrəddin əl-Huseyni əd-Diməşqi Haşim əl-Xatibi və Əli əd-Dəqr ilə birgə Suriyanı ziyarət etmiş, orada siqaretin haram olduğunu bəyan etmiş və oranın camaatı bu fikri onlardan qəbul edib siqareti tərk etmişlər.

2- Hələbin keçmiş müftisi siqaretin zərərini bildikdən sonra onun haram olduğunu demişdir.

3- Hələbdə yaşayan Şafilərin müftisi Əsəd Abci siqaretin haram olduğu barədə fətva vermişdir.

4- Muhəmməd əl-Həmid «Rudud alə Əbatil» kitabında demişdir: «Siqaretin zərər olmaması ilə bağlı hər hansı bir

fətva verilərsə, etimad etmək lazımdır ki, onun zərəri sübuta yetirildikdə çəkilməsi haram buyurulsun. Düşünürəm ki, bu haqda varid olan ayə və hədislərə görə o haramdır.

5- Mustafa əl-Himəmi «əm-Məhdətul-İslahiyya» kitabında (səh. 489) demişdir: «Şübhəsiz ki, bir çox alimlər siqaretin haram olduğunu demişlər, xüsusən də Quran məclisində, məscidlərdə, elm məclislərində və sairə yerlərdə. Bu kimi ehtiram olunan yerlərdə siqaretin çəkməyin haram olduğu bildirilmişdir. O ki qaldı mənim fikrimə, düşünürəm ki, bu canlarına ziyan vuran kimsələrə haramdır, belə ki, sağlamlığı qorumaq fərzdir».

6- Hicaz alimləri Abdüləziz ibn Baz, Muhəmməd ibn İbrahim, Abdurrəhman bin Nasir əs-Sədi, Abdullah ibn Əli əl-Fədiyyə, Abdurrəzzaq əl-Afifi, Əbu Bəkr əl-Cəzairi və s. siqaretin və tənbəkinin haram olduğu barədə fətva vermişlər.

## Siqaret çəkənlərin gətirdikləri əsaslara cavab

1- Bəzi siqaret çəkənlər iddia edirlər ki, onlar uzun müddət siqaretlə yoldaş olmuş və onu heç vaxt tərk etməmişlər (və ya tərk edə bilməmişlər). Onlara demək lazımdır ki, əgər dostun səndən bir lirə oğurlasaydı sən onu tərk edərdin və camaatı da onunla dostluq etməkdən çəkindirərdin. Bəs hər gün səndən neçə-neçə lirələr oğurlayan, canına zərər vuran, ətrafdakılara əziyyət verən və nəhayət dünya və axirətdə səni yandıran siqaretə nə deyirsən? O necə də pis dostdur.

2- Bəziləri də iddia edir ki, Peyğəmbərin (s.ə.s) zamanında siqaret yox idi ki, onu haram etsin. Onlara demək lazımdır ki, sözsüz ki, İslam cana, yaxud qonşuya,

yaxud mala ziyan vuran hər bir şeyi haram etmişdir. Elə isə bu zərərin üçünü də özündə cəm edən siqaretə nə deyək?

3- Bəziləri də iddia edirlər ki, nə çox siqaret çəkənlər olub ki, onlar çox yaşayıb və siqaret onlara heç bir zərər verməyibdir. Onlara belə demək lazımdır: «Tutaq ki, siqaret onların canına zərər vurmayıb, lakin artıq o, mallarına, əxlaqlarına və ətrafdakılara zərər vurmuşdur. Bir də ki, onun zərəri dərhal üzə çıxmır, əksinə bir müddətdən sonra aşkar olur. Siqaret çəkənin ağzından pis qoxu gəlməsi, dişlərinin qaralması və Allahın insanlar üçün yaratdığı təmiz havanı korlaması kifayətdir. Siqaret ola bilsin ki, az sayda insanlara zərər verməsin, lakin əksəriyyət bundan əziyyət çəkir, odur ki, hökm də əksəriyyətə görədir. Həmçinin müasir tibb siqaretin hamıya zərər olduğunu elan etmişdir».

4- Bəzi siqaret çəkənlər iddia edirlər ki, onlar siqareti ata bilmirlər. Sözsüz ki, insan günlərlə yemək və içməkdən imtina edə bilər, bəs siqaretdən nə üçün imtina etməsin. O siqaret ki, ona nə qüvvət verir, nə də aclıqdan qurtarır. Məgər onlar razıdırlarmı ki, siqaretin və şəhvətlərinin quluna çevrilsinlər, bu halda da ölüb getsinlər.

5- Bir çoxları da siqaretin haram olması barədə Quranda heç bir dəlilin olmadığını iddia edirlər. Halbuki, Uca Allah Quranda belə buyurur: «Biz kitabda (Quranda) heç bir şeyi nəzərdən qaçırmadıq». Belə ki, bunu anlamaq üçün bilməliyik ki, Allah, kitabında xatırladığı şeyləri, ya adları ilə, ya da keyfiyyətləri ilə qeyd edir. Əgər hər bir şeyi adı ilə qeyd etsə idi Quran bu həcmdə olmazdı. Bu haqda Uca Allah buyurur: «Murdar şeyləri onlara haram edər». Odur ki, murdar şeylərin hamısından çəkinmək lazımdır. Elə siqaret də, tənbəki də, tiryək də murdar şeylərdən hesab edilir.

6- Bəzi siqaret çəkənlər dəlil olaraq bəzi həkimlərin və şeyxlərin fikirlərinə əsaslanırlar. Bu heç də siqaret çəkməyi halal etmir. Çünki onlar məsum deyildirlər və biz də onların xətalarını təqlid edən deyilik. Hədisdə Peyğəmbər (s.ə.s) demişdir: «Hər bir Adəm övladı xəta edəndir və xəta edənlərin ən xeyirlisi tövbə edənlərdir». Odur ki, bizim üçün Allahın elçisindən (s.ə.s) başqa heç bir nümunə, örnək olan kimsə yoxdur. «Həqiqətən, Allahın Rəsulu Allaha, qiyamət gününə ümid bəsləyənlər (Allahdan, qiyamət günündən qorxanlar) və Allahı çox zikr edənlər üçün gözəl nümunədir!» (əl-Əhzab 21)

## Siqaret çəkənlərdə əsəb və onun müalicəsi

Siqaret çəkənlər iddia edirlər ki, onlar siqareti öz qəzəblərini və kədərlərini yüngülləşdirmək üçün çəkirlər. Lakin onlar siqaretin dərman deyil, əksinə xəstəlik olduğunu bilmirlər. Halbuki, elə onun özü siqaret çəkəni həyəcanlı və əsəbi edir. Xüsusən də insan siqaret tapmayanda. Bilmək lazımdır ki, kədəri aparmaq və əsəbi sakitləşdirmək üçün bu haram siqaretdən çox-çox üstün olan faydalı müalicələr vardır:

1- Bir kişi Peyğəmbərin (s.ə.s) yanına gəlib dedi: «Mənə qısa bir nəsihət ver ki, onu yadımda saxlayım». Rəsulallah (s.ə.s) dedi: «(Heç vaxt) qəzəblənmə!» (Buxari)

2- Süleyman bin Surat (r.a) rəvayət edir ki, biz Peyğəmbərin (s.ə.s) yanında oturmuşduq və iki kişi bir-biri ilə söyüşürdülər. Onlardan biri üzü qızarmış və qəzəbli halda öz dostunu söyürdü. Peyğəmbər (s.ə.s) dedi: «Mən bir söz bilirəm ki, əgər onu desələr bu hal onlardan gedər: «Əuzu billəhi min əş-şeytanir-rəcim». Səhabələr həmin kişiyə dedilər: «Məgər sən Peyğəmbərin (s.ə.s) nə dediyini eşitmədinmi? Qəzəbli adam "mən dəli deyiləm" deyə cavab

verdi.

3- İbn Abbas (r.a) Uca Allahın: «Sən pisliyi yaxşılıqla dəf et! Belə olduqda aranızda düşmənçilik olan şəxsi sanki yaxın bir dost görərsən» ayəsi barəsində demişdir: «Qəzəbləndikdə səbr etmək, pislik olunduqda isə bağışlamaq lazımdır. Əgər bunu edərlərsə Allah onları qoruyar, düşmənlərini onlara müti edər və onları yaxın bir dost kimi görərlər. (Buxari)

4- Başına bir müsibət gəldiyi zaman Allahın qəza və qədəri ilə razılaş və o şəxslərdən ol ki, Uca Allah onlar barəsində belə demişdir: «(Ya Muhəmməd!) Səbr edən şəxslərə müjdə ver! O kəslər ki, başlarına bir müsibət gəldiyi zaman: «Biz Allahın bəndələriyik və (öldükdən sonra) Ona tərəf (Onun dərgahına) qayıdacağıq» – deyirlər. Onları Rəbbi tərəfindən bağışlanma və rəhmət gözləyir. Onlar doğru yolda olanlardır!» (əl-Bəqərə 155-157)

## Siqaret çəkənin hekayəti

Bərbərxanada bərbərin kreslosunda oturmuşdum və yanımda bir nəfər siqaret çəkirdi. Qış fəslində hava soyuq olduğuna görə otaq bağlı idi və otağı dolduran tüstüsü mənə əziyyət verirdi. Mən çətinliklə nəfəs almağıma baxmayaraq ona bir söz deməyə tərəddüd edirdim. Nəhayət özümü toplayıb ona dedim: «Ey əmi! Bəlkə siqaretini saxlayıb bu bağlı otaqda deyil açıq havada çəkəsən». Siqaret çəkən (təqsirkar olduğuna görə) narahat oldu və heç bir cavab vermədi. Sonra mən onu bir dəfə küçədə görəndə ona dedim: «Bağışla ey əmi». O mənə dedi: «Onsuz da mən siqaret çəkəcəm və onu tərk etməyəcəm». Mən ona dedim: «Ey əmi, mən ancaq sənə nəsihət vermək istəyirdim. Sən isə onu qəbul etmədin». Mən onun halına

acıyıb çıxıb getdim. Aradan bir müddət keçdi və mən siqaret çəkməkdə israr edən bu miskin kişi ilə yenə də rastlaşdım. O gözlənilmədən təbəssüm edərək mənə dedi: «Artıq mən siqareti tərk etdim». Mən həyəcanla bunun səbəbini ondan soruşdum. O mənə siqaret barəsində olan hekayətini və onu tərk etməyə sövq edən səbəb haqqında danışmağa başladı: «Qulaq as, mən dəhşətli bir siqaret düşkünü idim. Onun verdiyi zərərlərdən əziyyət çəkdiyimə baxmayaraq bir dəqiqə də olsa onu tərk etməzdim. Belə ki, mən gecələr yardım üçün xəstəxanaya da gedərdim. Çünki mən kəskin tənəffüs tutulmasına məruz qalırdım və az qalırdı ki, boğulam. Bu hal bir neçə ay davam etdi və tənəffüs tutulmaları artdı. Nəhayət mən yeyib içdikdə boğazımda olan bir şeyin mənə sıxıntı verdiyini hiss etməyə başladım. Mən bir çox həkimlərin yanına getdim və müxtəlif müalicələr aldım, lakin heç bir fayda olmadı. Allahın qədəri ilə səriştəli bir həkimin yanına gəlib çıxdım. O (rentgen vasitəsi ilə) sinəmin şəklini çəkdi və bu şəkillərə baxdıqdan sonra məndən soruşdu:

- Gündə neçə siqaret çəkirsən?
- Bir qutu yarım.
- Əgər sən bir siqaret götürüb çəksən və onun tüstüsünü ağ tənzifə üfürsən, o saralar, sonra qaralar və deşikləri tutular. Bəs gündə 30 siqaretin tüstüsünü öz sinənə və ciyərlərinə çəksən necə?!
- Həkim bunun əlacı nədir?
- Məndə buna əlac yoxdur. Sən Beyruta get, orada səni müalicə edərlər və lazımi dərmanları verərlər.
- (O əsəbi halda, acıqla) Ey doktor səndən xahiş edirəm mənim xəstəliyimi deyəsən.

Onun rəngi qaraldı, sifəti dəhşətli hal aldı və titrəyərək:

«Xərçəng, xərçəng...» dedi:
- Sən mütləq siqareti tərk etməlisən ki, sağalasan.

Kişi cibindən siqaret qutusunu çıxardıb cırıq-cırıq etdikdən sonra yerə atıb dedi:
- Sən məni öldürməzdən qabaq mən səni öldürəcəm.
- Vaxt itirmədən xərçəngi şüa ilə müalicə etmək üçün Beyruta get.

Bu kişi Beyruta gedərək xərçəngin müalicəsi ilə məşğul olan xəstəxanaya gedir. Orada rentgen vasitəsilə onun boğazının şəklini çəkib, qanını müayinə etdikdən və digər tibbi yoxlamalardan keçdikdən sonra həkim dedi:
- Biz səni yalnız siqareti tərk etdikdən sonra müalicə edə bilərik.
- Doktor, artıq mən onu ömürlük tərgitmişəm.
- Şüa ilə xərçəngi müalicə etmək üçün hər gün bura gəlmək vacibdir.

O bir ay müddətində küllü miqdarda var-dövlət xərcləyərək hər gün şüa vasitəsilə xərçəngi müalicə etmək üçün xəstəxanaya gedir və vəziyyəti yaxşılaşdıqdan sonra öz ölkəsinə qayıdır. Bir müddətdən sonra o 40 il tərk etmədən çəkdiyi siqaretin sayəsində arterioskleroz[6] xəstəliyinə məruz qalır və nəhayət siqaret öz zəhəri ilə onu öldürür.

## Hüznü dəf etmək üçün dua

İbn Məsud (r.a) rəvayət edir ki, Peyğəmbər (s.ə.s) demişdir: «Əgər bəndə hüzn və kədərə məruz qaldıqda (bu duanı) deyərsə: «Allahım! Mən Sənin qulunam və

[6] Arteriyaskleroz: Arteriya divarlarının qalınlaşıb öz elastikliyini itirməsidir.

qulunun oğluyam. Qadın qulunun övladıyam. Mənim kəkilim Sənin əlindədir. Haqqımda Sənin hökmün keçərlidir. Haqqımdakı təqdirin ədalətlidir. Özünü adlandırdığın, kitabında endirdiyin, qullarından birinə öyrətdiyin və Öz dərgahındakı qeyb aləmində Özünə xas etdiyin, Sənə aid olan hər bir isimlə Səndən istəyirəm ki, Quranı qəlbimin baharı, sinəmin nuru, hüznümü aradan qaldıran və kədərimizi aparan edəsən». – Allah onun hüzn və kədərini aparar və onun əvəzinə ona fərəh bəxş edər. (Səhihdir, Əhməd rəvayət etmişdir).

Ey siqaret çəkən qardaşım! Başına bir müsibət və kədər gəldikdə bu duanı oxu və Allahın sənin hüzn və kədərinin əvəzinə fərəh bəxş etdiyini görəcəksən. Siqaret isə heç də hüznü aparmır, əksinə o sənin xəstəliyini artırır, səndə pis əxlaq və kəskin qəzəb yaradır. Üstəlik o sənin malına ziyam vurur və ətrafdakılara da əziyyət verir.

## Siqaret çəkməkdən necə əl çəkməlisən

Ey oxucu qardaşım! Artıq siqaretin haram olduğu sənə aydın oldu. Çünki o sağlamlığa zərər verir, malı məhv edir və xüsusən də ictimai nəqliyyatlarda və izdihamlı yerlərdə olarkən ətrafdakılara əziyyət verir.

Ey siqaret çəkən qardaşım! Heç siqaretinlə insanlara əziyyət verərkən, tüstüsünü onların üzünə üfürmək və havalarını çirkləndirmək nəzakətdən və dindəndirmi?

Bil ki, siqaretlə çirklənmiş havanın zərəri çirkli suyun zərərindən daha çoxdur. Odur ki, siqaret çəkməyi tərk et və mübahisə edənlərdən olma. Əgər bizdən birimiz bir lira yandırarsa insanlar onun haqqında «məcnun», «ayıb olsun ona» – deyərlər! Elə isə yüzlərlə lira, dinar və riyal xərcləyib siqaret alan və bununla da öz malını yandıran, bədəninə və ətrafdakılara zərər vuran şəxslərə nə deyərlər?

1- Dostların qarşısında siqareti tərk edəcəyin barədə Rəbbinə söz ver və de: «Kaş ki, mənimlə sənin aranda şərqlə qərb arasındakı məsafə qədər uzaqlıq olaydı. Sən nə pis yoldaş imişsən!» (əz-Zuxruf, 38)

2- Meyvələr, şirniyyatlar və başqa pak şeylər vasitəsilə siqaretdən özünə təsəlli tap.

3- Bayramlarda, şənliklərdə və ziyarətlərdə qonaqlarına əziyyət vermə, malını tələf etmə və dininə də müxalif olma.

4- Siqaretin ən yaxşı müalicəsi ona başlamamaq və ondan çəkinməkdir.

5- Siqareti tərgitmək üçün dərman tap və ondan gündəlik iç.

6- Qəzəbləndikdə Allaha sığın və dəstəmaz al. Çünki qəzəb oddur, od isə siqaret və odla deyil, su ilə sönür.

7- Həcilərə (həcdən qayıtdıqda) siqaret gətirmək olmaz. Belə ki, (həcdən qayıtdıqda) onların qonaqları üçün ən xeyirli hədiyyə xurma, misvak və zəm-zəm suyudur. Odur ki, bu zərərli siqaretin əvəzinə ağzına faydalı olan misvak al.

8- Ramazan ayında və başqa aylarda oruc tutmaq siqareti tərgitmək üçün ən xeyirli köməkçidir.

9- Siqareti tərgitməkdə Allaha sığın və bil ki, kim Allah üçün bir şeyi tərk edərsə, Allah o işdə ona yardımçı olar.

10- Allaha belə dua et: «Allahım siqareti bizə batil olaraq göstər, bizi ondan uzaqlaşmaqla ruziləndir və bizdə ona qarşı nifrət oyat».

11- Siqaret çəkənlərdən və onun tüstüsündən uzaqlaş, insanları da ondan çəkindir.

12- Siqaret çəkməyə meyl hiss etdikdə misvakdan və ya saqqızdan istifadə et.

13- Qəhvə və çay içməyi azalt, meyvələri isə çoxalt.

14- Səhər yeməyindən sonra bir bardaq üzüm, limon və

ya portağal şirəsi iç.

15- Siqaret çəkmək adətdir, adəti isə tərk etmək mümkündür və asandır. Onu tərk etdikdən sonra yenidən ona qayıtmaqdan çəkin. Hətta bəzi xəstəxanalarda siqaret çəkənlər üçün müalicə mərkəzləri mövcuddur.

16- Siqaret çəkənə siqaretdən yaxa qurtarmaq üçün bu duanı oxuması gərəkdir. Peyğəmbər (s.ə.s) demişdir: «Kim gecə oyanıb yuxudan qalxdıqda: «Allahdan başqa ilahi yoxdur, O təkdir və Onun şəriki yoxdur. Mülk Onundur və həmd Onadır. O hər şeyə qadirdir. Allahı bütün nöqsanlardan tənzih edirəm, Həmd Allahadır, Allahdan başqa ilahi yoxdur və Allah Ucadır. Güc və qüvvət ancaq Uca və Böyük olan Allaha aiddir. Rəbbim məni bağışla» – deyərsə və ya dua edərsə onun duası qəbul olar. Əgər o dəstəmaz alıb namaz qılarsa onun namazı qəbul olar. (Buxari və başqaları rəvayət etmişlər). Sən də belə de: «Allahım siqareti məndən uzaq et və məndə ona qarşı nifrət oyat».

## Siqaret çəkməyin yeni müalicəsi

Ey siqaret çəkən! Sənə, şübhəsiz ki, sənin həyatın da, sağlamlığın da, malın da Allahın səndə olan əmanətidir və bunlarda səhlənkarlıq etmək sənə halal deyil. Allaha dön və bil ki, əgər niyyətini saflaşdırsan nöqsansız və Uca olan Allah siqaret çəkməyin xətərlərindən qurtarmaq üçün sənə kömək etməyə qadirdir. Bil ki, siqaretə olan rəğbət ona bağlılıqdan deyil, sadəcə olaraq adətdəndir. Ona görə də (tərgitməyə başladığın) ilk iki həftədə ağzını və əlini misvak və Allahı zikr etmək kimi başqa şeylərlə məşğul etməklə siqaretsiz keçindirmək olar. İlk mərhələdə siqareti tərgitmək üçün siqaret çəkənlərdən uzaq ol. Çünki bu, o adəti tərgitmək üçün sənə kömək edər. Şübhəsiz ki,

siqareti tərk etməyə başladığın zaman təsadüf olunan bəzi şeylər sırf nəfsi amillərin nəticəsi olan keçib-gedən qısa bir müddətdən başqa bir şey deyildir. Şübhəsiz ki, siqareti tərgitməkdə pis adət qarşısında acizlik hissinə qalib gəlmək vardır. Bu da Allahın razılığını qazanmaqla pis hissləri dəyişdirib nəfs rahatlığı və ləzzət verici hisslərə çevirməyə səbəb olur.

## Misvakın faydaları

Misvakın böyük faydaları vardır, müasir tibb elmi də bunu isbat etmişdir. Onun tərkibində ağızı və dişləri təmizləyən maddə vardır. Peyğəmbər (s.ə.s) demişdir:

1- "Əgər ümmətim üçün çətin olmasaydı, onlara hər dəstəmazda misvaklanmağı əmr edərdim." (Hədis səhihdir, onu Malik və Şafii rəvayət etmişlər.)

2 – "Əgər ümmətim üçün çətin olmasaydı, onlara hər namazdan öncə misvaklanmağı əmr edərdim." (Buxari və Muslim)

3 – "Misvak ağızı təmizləyən, Rəbbi razı salandır." (hədis səhihdir, onu Əhməd rəvayət etmişdir)

Ey müsəlman qardaşım! Buna əməl et və bu zərərli, iyrənc siqaretin əvəzinə ağzına misvak qoy!